# 2026 XASMƏMMƏDOV ARBİTRAJ MÜSABİQƏSİ

# MÜSABİQƏ İŞİ

Müəllif:

Nazlı Əhmədova

BAKI DÖVLƏT UNİVERSİTETİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR.

Veb-sayt: bsumootcourtsociety.org
E-poçt: info@bsumootcourtsociety.org

Hüquqşünas Pyer Notrius

"Riverton Construction" MMC
Ünvan: İoniya Respublikası, Lirena şəhəri, Safir küçəsi, 16
Tel: +999 12 55 524 68 89
E-poçt: pyernotrius@gmail.com

*09.01.26* tarixində cases@kac.az vasitəsilə

Xasməmmədov Arbitraj Mərkəzi
Katiblik

Hörmətli Katiblik,

Təmsil etdiyim "Porto Novo" konsorsiumunun üzvü "Riverton Construction" MMC adından Bakı Arbitraj Mərkəzinin Arbitraj Qaydalarının 6-cı maddəsinə uyğun olaraq əlavə edilmiş arbitraj bildirişini təqdim edirəm. Bildirirəm ki, bu arbitraj icraatında yalnız "Riverton Construction" MMC-ni təmsil edirəm və "Airport Construction" MMC-nin nümayəndəsi qismində çıxış etmirəm.

Arbitraj bildirişinin surəti Cavabdeh "Terravia" MMC-yə elektron poçt və kuryer vasitəsilə göndərilmiş və müvafiq rüsum ödənilmişdir.

Tələb olunan sənədlər əlavə olunur.

Hörmətlə,
Hüquqşünas Pyer Notrius

Pyer Notrius

Qoşma:
*1. Arbitraj bildirişi və qoşmaları;*
*2. Etibarnamə (təqdim edilmir);*
*3. Hüquqşünas Pyer Notriusun bioqrafiyası (təqdim edilmir).*

"Porto Novo"
konsorsiumu tərəfindən
(İoniya Respublikası, Lirena
şəhəri, Safir küçəsi, 16)

"Terravia" MMC-yə qarşı
(Kaspiya Respublikası, Astera
şəhəri, Şəfəq prospekti, 19)

Arbitraj bildirişi

Hazırkı bildiriş ilə "Porto Novo" konsorsiumu ("İddiaçı") Bakı Arbitraj Mərkəzinin Arbitraj Qaydalarının ("BAM Qaydaları") 6-cı maddəsinə uyğun olaraq "Terravia" MMC-yə ("Cavabdeh") qarşı arbitraj iddiası qaldıraraq Xasməmmədov Arbitraj Mərkəzinə ("XAM") müraciət edir.

Bu Arbitraj bildirişi BAM Qaydalarının 31.1-ci maddəsinə əsasən, iddia ərizəsi kimi qəbul edilmək üçün kifayət qədər faktiki, hüquqi əsaslara və yazılı sübutları əks etdirən qoşmalara malikdir. İddiaçı arbitraj məhkəməsinin müəyyən edəcəyi prosessual təqvimə uyğun olaraq mövqeyini və sübutlarını əlavə etmək hüququnu saxlayır.

**Faktlar**

1. İddiaçı "Porto Novo" konsorsiumu (bundan sonra – İddiaçı) 2014-cü ildə Novaliya şəhərində beynəlxalq hava limanının tikintisi layihəsində iştirak etmək məqsədilə İoniya Respublikasında təsis edilmiş "Riverton Construction" MMC və "Airport Construction" MMC tərəfindən yaradılmış, hüquqi şəxs olmayan müvəqqəti konsorsiumdur. "Riverton Construction" MMC 1998-ci il, "Airport Construction" MMC isə 2001-ci ildə İoniya Respublikasında təsis edilmiş, irihəcmli hava limanı, avtomobil yolu və digər nəqliyyat infrastrukturunun layihələndirilməsi və tikintisi sahəsində beynəlxalq təcrübəyə malik şirkətlərdir.
2. Kaspiya Respublikasının Novaliya şəhərində beynəlxalq hava limanının tikintisi məqsədilə dövlət şirkəti olan "Terravia" MMC (bundan sonra – Cavabdeh) tərəfindən açıq tender elan edilmiş və tenderin nəticələrinə əsasən, İddiaçı Podratçı qismində seçilmişdir. Tərəflər 15 fevral 2015-ci il tarixində tikinti müqaviləsi (bundan sonra – Müqavilə) bağlamışdırlar **(Qoşma İ-001)**.

Müqaviləyə əsasən, birinci eniş zolağı üzrə müqavilə qiyməti 100000000 (yüz milyon) avro olmuşdur. İşlər ən geci 1 may 2015-ci il tarixində başlanmalı, 31 dekabr 2016-cı il tarixinədək isə başa çatdırılmalı idi.

3. 10 fevral 2015-ci il tarixində İddiaçı və Cavabdehin nümayəndələrinin, həmçinin Kaspiya Respublikasının Vergilər Nazirliyinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə keçirilmiş görüşdə Nazirliyin səlahiyyətli nümayəndəsi layihəyə 31 dekabr 2016-cı ilədək 0% ƏDV dərəcəsinin tətbiq olunacağını, bununla bağlı yazılı qərarın veriləcəyini bildirmişdir. Cavabdeh həmin mövqeyi Müqavilənin xüsusi şərtlərinin 14.2-ci maddəsinə daxil etmiş və Vergilər Nazirliyindən 0% ƏDV dərəcəsinin tətbiq olunması barədə yazılı qərarın əldə edilməsini təmin etmək öhdəliyini üzərinə götürmüşdür.
4. 16 fevral 2015-ci ildə Kaspiya Respublikasının vergi qanunvericiliyi dəyişdirilmiş və Vergilər Nazirliyinin belə güzəşt tətbiq etmək səlahiyyəti ləğv edilmişdir. Cavabdeh də vergi qərarını İddiaçıya təqdim etməmişdir.
5. Layihə cizgilərinə sonradan düzəlişlər edilməsinə ehtiyac yaranmış və bu səbəbdən cizgilərin yenidən işlənməsi üçün işlər 10 ay müddətinə dayandırılmışdır. Nəticədə, işlər 1 mart 2016-cı il tarixində başlamışdır. Tərəflər 15 mart 2016-cı il tarixli 1 saylı dəyişiklik ilə 10 ay boşdayanma müddətini və faktiki işə başlama tarixini 1 mart 2016-cı il olaraq tanımış, Müqavilənin müddətini 31 dekabr 2017-ci il tarixinədək uzatmışdırlar **(Qoşma İ-002)**. Eyni dəyişiklik ilə ikinci eniş zolağı işlərin həcminə əlavə edilmiş, Müqavilənin qiyməti 50000000 (əlli milyon) avro artırılmış, həmin artıma 9000000 (doqquz milyon) avro ƏDV hesablanmış və yekun olaraq, ümumi müqavilə qiyməti 159000000 (yüz əlli doqquz milyon) avro müəyyən edilmişdir.
6. 30 dekabr 2017-ci il tarixli 2 saylı dəyişiklik ilə isə Müqavilənin qiyməti 60000000 (altmış milyon) avroya endirilmiş, işlərin həcmi azaldılmış və işlərin son tarixi kimi 31 dekabr 2018-ci il müəyyən edilmişdir **(Qoşma İ-003)**. Dəyişikliyə əsasən, tərəflər öhdəlik götürmüşlər ki, dəyişikliyin tarixinə qədər olan işlərlə bağlı gələcəkdə bir-birinə qarşı heç bir tələb irəli sürməyəcəklər.
7. Tikintidə istifadə olunan əsas materiallardan biri dəmir armatur idi. Layihə sənədləri hazırlanarkən armaturun Rusiya Federasiyasından təchiz edilməsi nəzərdə tutulurdu. Lakin 1 yanvar 2016-cı il tarixindən İoniya Respublikası 5 il müddətinə Rusiya Federasiyasına qarşı sanksiyalar tətbiq etmiş və İoniya hüquqi şəxslərinə Rusiya Federasiyasından dəmir armatur almağı qadağan etmişdir. İddiaçı layihə üçün armaturu Kaspiya Respublikasındakı təchizatçılardan əvvəlki qiymətlə müqayisədə 50% baha əldə etmiş və nəticədə, 10000000 (on milyon) avro əlavə xərc çəkmişdir.

8. İddiaçı 15 dekabr 2018-ci il tarixli yazılı bildirişlə əlavə armatur xərclərinin kompensasiyasını, həmçinin birinci eniş zolağı üzrə yaranmış ƏDV tələbini irəli sürmüşdür **(Qoşma İ-004)**. Cavabdeh 18 dekabr 2018-ci il tarixli məktubla sözügedən tələbləri Müqavilənin 20.1-ci yarımbəndinə və 2 saylı dəyişikliyin tələblərdən qarşılıqlı imtina barədə müddəasına istinad edərək rədd etmişdir **(Qoşma İ-005)**.
9. İddiaçı rəhbərliyi 15 aprel 2016-cı il tarixində aparılmış yerqazma işləri zamanı mümkün mədəni irs nümunələrinin aşkar edilməsi barədə sonradan - "Novaliya" qəzetindən məlumat əldə etmişdir **(Qoşma İ-006)**. İşlərin dayandırılmaması və aşkar edilmiş qalıqların məhv edilməsi vəzifə səlahiyyətlərini aşmış layihə rəhbərinin məsuliyyətsiz hərəkətləri nəticəsində baş vermişdir. İddiaçı mədəni irs nümunələrinin məhv edilməsi ilə bağlı heç bir məsuliyyət daşımır. Həmçinin Cavabdeh də baş verənlər barədə 2017-ci ilin noyabr ayında mediada yayımlanan xəbərlərdən məlumat əldə etməsinə baxmayaraq, bu məsələ ilə bağlı uzun müddət hər hansı iddia və ya etiraz irəli sürməmişdir.

**Hüquqi məsələlər və tələblər**

10. Cavabdehin 0% ƏDV dərəcəsini təmin etmək öhdəliyi xüsusi şərtlərin 14.2-ci yarımbəndində açıq və qeyd-şərtsiz təsbit edilmişdir. Bu şərt tender qiymətinin və risk bölgüsünün əsas elementidir, vergi orqanının sonrakı mövqeyi Cavabdehin İddiaçı qarşısındakı müqavilə öhdəliyini öz-özlüyündə aradan qaldırmır.
11. Cavabdehin yazılı qərarı təqdim etməməsi, vergi güzəştinin mümkünlüyü barədə tenderöncəsi təminatları və müqavilə şərtini yerinə yetirməməsi Azərbaycan Respublikasının Mülki Məcəlləsinin öhdəliklərin vicdanla və lazımınca icrası, müqavilə pozuntusu və zərərin əvəzinin ödənilməsi müddəalarına əsasən, məsuliyyət yaradır.
12. Birinci eniş zolağının 100000000 (yüz milyon) avroluq qiymətinə tətbiq olunan 18% ƏDV əsasında İddiaçının ƏDV tələbinin ilkin məbləği 18000000 (on səkkiz milyon) avrodur. Bu məbləğ vergi orqanının yekun hesablamaları, ödəniş sənədləri və mühasibat sübutları əsasında dəqiqləşdiriləcəkdir.
13. Əlavə olaraq, İddiaçı bildirir ki, Cavabdehin hərəkətləri İoniya Respublikası ilə Kaspiya Respublikası arasında bağlanmış ikitərəfli investisiya sazişi ilə qorunan hüquqlara, o cümlədən ədalətli və bərabər şərait prinsipinə və həmin sazişdə nəzərdə tutulan digər investisiyanın qorunması normalarına ziddir. Həmin saziş Azərbaycan Respublikası Hökuməti ilə İsveçrə Federal Şurası arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 23 fevral 2006-cı il tarixli Sazişlə eynidir.
14. Sanksiyalar Müqavilə bağlandıqdan sonra qüvvəyə minmiş, əvvəlcədən nəzərdə tutulan təchizat mənbəyindən istifadəni İddiaçı üçün hüquqi baxımdan qadağan

etmişdir. Belə ki, bu, bazarda qiymətlərin adi qaydada dəyişikliyi hesab edilə bilməz, çünki 50 faizlik qiymət artımı meydana gəlmişdir. Bu hal Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 422-ci maddəsindəki şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi hesab edilir və müqavilə qiymətinin uyğunlaşdırılmasını tələb edir.

15. İddiaçı alternativ təchizat əldə etməklə işlərin dayandırılmasının qarşısını almış, Cavabdehin layihəsinin davamlılığını təmin etmiş və zərərin azaldılması vəzifəsini yerinə yetirmişdir. Armatur üzrə əlavə və sənədləşdirilmiş xərc 10000000 (on milyon) avrodur.

16. 2 saylı dəyişiklikdəki gələcəkdə əlavə tələblərin olmayacağı barədə öhdəlik konkret ƏDV və sanksiya tələblərini, onların məbləğini və ya artıq yaranmış hüquqları ayrıca göstərmir. Ümumi imtina müddəası aydın olmayan və artıq yaranmış tələblərdən imtina kimi genişləndirilməməli, tərəflərin real iradəsi və müqavilənin məqsədi nəzərə alınmaqla dar təfsir edilməlidir.

17. ƏDV öhdəliyi Cavabdehin tenderöncəsi təminatlar və xüsusi şərtlər üzrə 14.2-ci maddədən, sanksiya xərcləri isə Müqavilə bağlandıqdan sonra yaranan şəraitin əhəmiyyətli dərəcədə dəyişməsindən irəli gəlir. İddiaçı bu iki konkret tələbdən açıq-aydın şəkildə imtina etməmiş, bu barədə aydın niyyətini yazılı şəkildə bildirməmişdir.

18. Tələblərdən imtina müddəası arbitraj sazişini ləğv etmir. Mübahisənin həmin müddəanın mənası və ondan irəli gələn hüquqi nəticələrlə bağlı olması da onun arbitraj qeyd-şərtinin tətbiq dairəsinə daxil olduğunu göstərir.

19. İddianın ilkin ümumi qiyməti faiz və arbitraj xərcləri istisna olmaqla, 28000000 (iyirmi səkkiz milyon) avrodur.

20. Qeyd edilənləri nəzərə alaraq, İddiaçı arbitraj məhkəməsindən aşağıdakılar barədə qərar qəbul edilməsini xahiş edir:

    a. 2 saylı dəyişiklikdəki tələblərdə nəzərdə tutulmuş ümumi imtina müddəasının bu arbitrajda irəli sürülmüş ƏDV və sanksiya ilə bağlı tələblərə tətbiq edilmədiyi müəyyən edilsin.

    b. Cavabdehdən İddiaçının xeyrinə armatur üzrə əlavə xərclər kimi 10000000 (on milyon) avro və ƏDV üzrə ilkin olaraq 18000000 (on səkkiz milyon) avro və ya sübutlarla müəyyən ediləcək daha yuxarı dəqiq məbləğ tutulsun.

    c. Müvafiq məbləğlərə ən geci 18 dekabr 2018-ci il tarixindən tam ödəniş tarixinədək Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun faiz hesablansın.

d. İddiaçının hüquqi yardım, ekspert, tərcümə, XAM rüsumları, arbitrlərin qonorarları və digər arbitraj xərcləri Cavabdeh tərəfindən ödənilsin.

e. Arbitraj məhkəməsinin məqsədəuyğun hesab etdiyi digər hüquqi müdafiə vasitələri tətbiq edilsin.

**Prosessual məsələlər**

21. Tərəflər Müqavilənin xüsusi şərtlərinin 20-ci maddəsində müqavilədən irəli gələn və ya onunla əlaqədar bütün mübahisələrin BAM Qaydalarına uyğun olaraq qəti həll edilməsini razılaşmışdırlar.

22. Arbitraj sazişinin əsas şərtləri aşağıdakılardır:

a. arbitrajın yeri - Bakı şəhəri, Azərbaycan Respublikası;

b. arbitrajın dili - Azərbaycan dili;

c. arbitrlərin sayı - üç;

d. arbitraj sazişinə və Müqaviləyə tətbiq olunan maddi hüquq - hüququn kolliziyası normaları istisna olmaqla, Azərbaycan Respublikasının hüququ.

23. İddiaçı arbitraj məhkəməsinin üç arbitrdən ibarət olmasını və sədrlik edən arbitrin XAM Arbitraj Komissiyası tərəfindən təyin edilməsini təklif edir.

24. İddiaçı təsdiq edir ki, bu arbitrajda yalnız Müqavilədən irəli gələn kommersiya mübahisəsi üzrə tələblər irəli sürür. "Porto Novo" konsorsiumunun üzvü "Riverton Construction" MMC İoniya Respublikası ilə Kaspiya Respublikası arasındakı ikitərəfli investisiya sazişinə əsasən, Cavabdehə qarşı bu arbitraj prosesi çərçivəsində əlavə iddia vermək hüququnun olduğunu bəyan edir və həmin hüququ özündə saxlayır.

*Qoşma İ-001- Müqavilə*

## Tikinti müqaviləsi

## Ümumi şərtlər

Bu Müqavilə 15 fevral 2015-ci il tarixində "Sifarişçi" adlandırılacaq "Terravia" MMC və "Podratçı" adlandırılacaq "Porto Novo" konsorsiumu (konsorsiumun üzvləri: "Riverton Construction" MMC və "Airport Construction" MMC) arasında bağlanmışdır. Sifarişçi və Podratçı bundan sonra birlikdə "Tərəflər" adlandırılacaq. Tərəflər aşağıdakılar barədə razılığa gəldilər:

## 2. Müqavilə məbləği

Sifarişçi Podratçıya işlərin birinci hissəsinin (yəni birinci eniş zolağının tikintisi) icrası, tamamlanması və qüsurların aradan qaldırılması üçün verilən müddət ərzində aşkar edilmiş qüsurların aradan qaldırılması müqabilində ƏDV və idxal rüsumları istisna olmaqla, 100000000 (yüz milyon) avro ödəməyi öhdəsinə götürür. İkinci eniş zolağının qiyməti isə ƏDV xaric 50000000 (əlli milyon) avro, ƏDV daxil isə 59000000 (əlli doqquz milyon) avro təşkil edir.

## XÜSUSİ ŞƏRTLƏR

## 3. Müqavilənin predmeti

3.1. Bu tikinti müqaviləsinin predmetini Sifarişçinin sifarişinə uyğun olaraq, Podratçı tərəfindən Kaspiya Respublikasının Novaliya şəhərində beynəlxalq hava limanının tikintisi təşkil edir. Podratçı bu Müqaviləyə uyğun olaraq işləri yerinə yetirməyi, Sifarişçi isə Müqavilənin şərtlərinə uyğun olaraq həmin işlərin icrası üçün Podratçıya ödəniş etməyi öhdəsinə götürür.

3.2. Tikinti 2 hissədən ibarətdir: birinci və (ehtiyac olduqda Sifarişçinin seçiminə uyğun olaraq) ikinci eniş zolağı. Sifarişçi ikinci eniş zolağının müqavilə üzrə iş həcminə əlavə edilməsini uyğun hesab etdikdə bu barədə Podratçıya bildiriş verəcək və Tərəflər müqaviləyə müvafiq dəyişiklik imzalayacaqlar.

3.3. İşlər ən geci 1 may 2015-ci il tarixində başlanmalı, 31 dekabr 2016-cı il tarixinədək isə başa çatdırılmalıdır.

**4. Tətbiq edilən hüquq**

Müqaviləyə, habelə onun mövcudluğu, etibarlılığı, təfsiri, icrası və ya ləğvi ilə bağlı bütün məsələlərə hüququn kolliziyası normaları xaric olmaqla, Azərbaycan Respublikasının hüququ tətbiq edilir.

**5. Konsorsiumun lideri**

"Porto Novo" konsorsiumunun lideri "Riverton Construction" MMC-dir. "Riverton Construction" MMC müqavilə üzrə konsorsiumu və onun hər bir üzvünü təmsil etmək, onlar üçün məcburi olan hərəkətləri həyata keçirmək səlahiyyətinə malikdir.

**6. Tarixi tapıntılar**

Tikinti sahəsində aşkar edilən arxeoloji, geoloji və ya mədəni irs əhəmiyyəti daşıyan bütün əşyalar və qalıqlar Sifarişçinin sərəncamına verilməlidir. Podratçı belə tapıntıların götürülməsinin, zədələnməsinin və ya məhv edilməsinin qarşısını almaq üçün ağlabatan tədbirlər görməlidir. Belə tapıntı aşkar edildikdə Podratçı işləri dayandırmalı, dərhal mühəndisə bildiriş verməli və onun göstərişlərinə əməl etməlidir.

**13. Əlavə və dəyişikliklər**

13.1. Müqaviləyə bütün əlavə və dəyişikliklər yazılı şəkildə edilməlidir.

13.2. Sifarişçi öz seçiminə əsasən, Müqavilə üzrə işlərin həcmini artırmaq və müqavilə qiymətinə 50000000 (əlli milyon) avro (əlavə məbləğ) dəyərində əlavə işləri daxil etmək hüququna malikdir. Bu halda tərəflər Müqaviləyə müvafiq dəyişiklik imzalayacaqlar.

**14. Müqavilə qiyməti və vergilər**

14.1. Müqavilənin qiyməti vahid qiymət ("lump sum") prinsipi əsasında müəyyən edilir. Əsas işlərə görə müqavilə qiyməti 100000000 (yüz milyon) avro (əsas məbləğ) təşkil edir.

14.2. Əsas işlər üzrə əlavə dəyər vergisi 0% dərəcə ilə hesablanır. Sifarişçi Vergilər Nazirliyi tərəfindən 31 dekabr 2016-cı il tarixinədək 0% ƏDV dərəcəsinin tətbiq edilməsini təmin etməyi öhdəsinə götürür.

**20. Arbitraj**

20.1. Bu Müqavilədən irəli gələn və ya onunla əlaqədar yaranan, o cümlədən onun mövcudluğu, etibarlılığı, təfsiri, icrası və ya ləğvi ilə bağlı hər hansı mübahisə yarandıqda tərəf həmin mübahisə barədə məlumat əldə etdiyi və ya məlumat əldə

etməli olduğu tarixdən etibarən 28 gün ərzində mühəndisə yazılı bildiriş (engineer@kic.kp ünvanı vasitəsilə) təqdim etməlidir.

20.2. Mühəndis mübahisəyə dair hər iki tərəfin mövqeyini, izahatlarını və təqdim etdiyi sənədləri almalı və onları nəzərdən keçirdikdən sonra mübahisə üzrə əsaslandırılmış yazılı qərar verməlidir.

20.3. Tərəflərdən hər hansı biri mühəndisin qərarı ilə razı olmadıqda həmin qərarı aldığı tarixdən etibarən 28 gün ərzində mübahisəni arbitraja təqdim edə bilər.

20.4. Mübahisə Azərbaycan Respublikasında yerləşən Xasməmmədov Arbitraj Mərkəzi tərəfindən Bakı Arbitraj Mərkəzinin Arbitraj Qaydalarına əsasən, arbitrajda qəti şəkildə həll edilir. Arbitraj məhkəməsi üç arbitrdən ibarət olacaq. Arbitrajın yeri Bakı şəhəri, arbitraj icraatının dili Azərbaycan dilidir. Müqaviləyə tətbiq olunan maddi hüquq hüququn kolliziyası normaları istisna olmaqla, Azərbaycan Respublikasının hüququdur.

20.5. Texniki şərtlər. Mühəndis: "Kaspiya Industrial Consultants" QSC, baş mühəndis Kraud Marven. Bildiriş ünvanı: engineer@kic.kp; Liman prospekti, ev 42, Novaliya şəhəri, Kaspiya Respublikası. Başlanma tarixi: 1 may 2015-ci il. Qüsurların bildirilməsi üçün müddət: 365 gün.

20.6. Rəsmi yazışma dili. Azərbaycan dili.

Sifarişçi
"Terravia" MMC
Baş direktor
Viktor Kelner



Podratçı
"Porto Novo" Konsorsiumu
Səlahiyyətli nümayəndə
Frauro Delotti



***<u>Qoşma İ-002 – Müqaviləyə dəyişiklik</u>***

**Müqaviləyə 1 saylı dəyişiklik**

Müqavilənin xüsusi şərtlərinin 13-cü maddəsinə uyğun olaraq, Sifarişçi və Podratçı aşağıdakılar barədə razılığa gəlmişlər:

1. İkinci eniş zolağının tikintisindən ibarət əlavə işlər Müqavilə üzrə işlərin həcminə daxil edilir. Bununla əlaqədar müqavilə qiyməti 50000000 (əlli milyon) avro (əlavə məbləğ) artırılır.
2. Əlavə məbləğə 9000000 (doqquz milyon) avro məbləğində ƏDV hesablanır. Bununla da, müqavilənin ümumi qiyməti 159000000 (yüz əlli doqquz milyon) avro müəyyən edilir.
3. Tərəflər təsdiq edirlər ki, layihənin cizgilərinin təqdim edilməsində baş vermiş gecikmə nəticəsində işlər 10 ay müddətinə dayanmış və işlər 1 mart 2016-cı il tarixində başlamışdır. Bu səbəbdən Müqavilənin müddəti 31 dekabr 2017-ci il tarixinədək uzadılır. Boşdayanma üçün Podratçıya əlavə məbləğ ödənilməyəcək.

Tarix: 15 mart 2016-cı il

"Terravia" MMC
Viktor Kelner
Baş direktor

"Porto Novo" konsorsiumu
Frauro Delotti
Səlahiyyətli nümayəndə

***<u>Qoşma İ-003 – Müqaviləyə dəyişiklik</u>***

**Müqaviləyə 2 saylı dəyişiklik**

Müqavilənin xüsusi şərtlərinin 13-cü maddəsinə uyğun olaraq, Sifarişçi və Podratçı aşağıdakılar barədə razılığa gəlmişlər:

1. Müqavilə qiyməti 60000000 (altmış milyon) avro məbləğində müəyyən edilir və işlərin həcmi həmin məbləğə uyğunlaşdırılır.
2. 60000000 (altmış milyon) avro dəyərində işlər yerinə yetirildikdən sonra Podratçının Müqavilə üzrə bütün öhdəlikləri tam icra olunmuş hesab edilir. Ümumilikdə, işlərin tamamlanma müddəti 31 dekabr 2018-ci il tarixi olaraq müəyyən edilir.
3. Tərəflər bəyan edirlər ki, gələcəkdə bir-birlərinə qarşı Müqavilədən irəli gələn və ya onunla əlaqədar, o cümlədən gecikmə, zərərin əvəzinin ödənilməsi, arbitraj və ya hər hansı digər əsas üzrə əlavə tələbləri olmayacaqdır.

Tarix: 30 dekabr 2017-ci il

“Terravia” MMC
Viktor Kelner
Baş direktor

“Porto Novo” konsorsiumu
Frauro Delotti
Səlahiyyətli nümayəndə

***<u>Qoşma İ-004 - Podratçının bildirişi</u>***

Tarix: 15 dekabr 2018-ci il

Kimə: "Terravia" MMC

Mövzu: Müqavilə qiymətinin artırılması, əlavə xərclərin əvəzinin ödənilməsi və birinci eniş zolağı üzrə ƏDV tələbi

Hörmətli Sifarişçi,

Müqaviləyə uyğun olaraq, sizə Podratçının əlavə xərclərinin əvəzinin ödənilməsi ilə bağlı tələbini təqdim edirik.

1. 1 yanvar 2016-cı il tarixindən etibarən İoniya Respublikası tərəfindən Rusiya Federasiyasına qarşı tətbiq edilmiş beynəlxalq sanksiyalar nəticəsində Podratçının dəmir armatur təchizatı zənciri pozulmuşdur. Nəticədə, Podratçı 2016–2018-ci illər ərzində Müqavilə üzrə işlərin icrasını təmin etmək məqsədilə dəmir armaturu Kaspiya Respublikasında yerləşən təchizatçılardan 50% daha baha qiymətə əldə etməli olmuşdur. Eyni zamanda Sifarişçinin 0% ƏDV dərəcəsinin tətbiqini təmin etməməsi nəticəsində Podratçı üçün əlavə xərclər, daha doğrusu, birinci eniş zolağının 100000000 (yüz milyon) avroluq qiymətinə 18% ƏDV-nin tətbiqi nəticəsində əlavə olaraq 18000000 (on səkkiz milyon) avro məbləğində vergi öhdəliyi yaranmışdır.
2. Yuxarıda göstərilən hallar Podratçı üçün Müqavilənin dəyərinin əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdur. Yekun olaraq, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilə qiymətinin 10000000 (on milyon) avro artırılaraq 70000000 (yetmiş milyon) avro müəyyən edilməsini, habelə 18000000 (on səkkiz milyon) avro məbləğində əlavə vergi yükünün əvəzinin ödənilməsini tələb edirik.

Hörmətlə,
"Porto Novo" konsorsiumu

***Qoşma İ-005 - Sifarişçinin etiraz bildirişi***

Tarix: 18 dekabr 2018-ci il

Kimə: "Porto Novo" konsorsiumu
Mövzu: 15 dekabr 2018-ci il tarixli tələbinizə cavab

Hörmətli Podratçı,

15 dekabr 2018-ci il tarixli Müqavilə qiymətinin artırılması, əlavə xərclərin əvəzi və birinci eniş zolağı üzrə ƏDV tələbi ödənilməsi barədə tələbiniz nəzərdən keçirilmişdir.

Sifarişçi həmin tələbi aşağıdakı əsaslarla qəbul etmir:

1. Müqavilənin 20.1-ci maddəsinə əsasən, Podratçı iddiasına əsas verən hadisə və ya şərait barədə məlumat əldə etdiyi və ya əldə etməli olduğu tarixdən etibarən 28 təqvim günü ərzində bildiriş təqdim etməli idi. Təqdim etdiyiniz tələblər həmin müddət bitdikdən sonra təqdim edildiyindən Müqavilənin 20.1-ci maddəsinə ziddir və bu qaydada irəli sürülmüş tələblər təmin edilə bilməz.
2. 30 dekabr 2017-ci il tarixli 2 saylı dəyişiklik ilə Tərəflər Müqavilədən irəli gələn və ya onunla əlaqədar gələcəkdə bir-birlərinə qarşı heç bir əlavə tələb irəli sürməyəcəklərini bəyan etmiş, mövcud və gələcək iddialardan imtina etmişlər. Həmin razılaşma Tərəflər üçün yekun və məcburi xarakter daşıyaraq Podratçının hər hansı əlavə maliyyə tələbi irəli sürməsini istisna edir.

Yuxarıda göstərilənləri nəzərə alaraq, 15 dekabr 2018-ci il tarixli tələbiniz tam həcmdə rədd edilir.

Hörmətlə,

"Terravia" MMC

***Qoşma İ-006 – Qəzet***

# NOVALİYA QƏZETİ

32-ci nəşr | 20 noyabr 2017-ci il | www.novaliya.com



## HAVA LİMANININ TİKİNTİSİ ZAMANI TAPILAN SAXSI QAB QIRIQLARI MARAQ DOĞURUR!

Novaliya beynəlxalq hava limanının tikintisi zamanı aparılan torpaq işləri nəticəsində aşkar edildiyi bildirilən saxsı qab qırıqları son günlər şəhər sakinləri arasında müzakirə mövzusuna çevrilib. Tikinti sahəsinin yaxınlığında yaşayan bəzi şəxslər həmin qırıqların üzərində həndəsi naxışların olduğunu və onların tarixi əhəmiyyət daşıdığını bildirirlər.

Kaspiya Respublikasının Mədəni İrs Agentliyi məsələ ilə bağlı hər hansı rəsmi açıqlama verməyib. Qəzetimizin əldə etdiyi məlumata görə, tikinti işləri qırıqların aşkar edilməsindən sonra da fasiləsiz davam etdirilib.

"Novaliya" qəzeti tikinti sahəsinin yaxınlığında yaşayan sakin Karlo Sarri ilə söhbətləşib.

*Müsahibə*

**Sual:** Qırıqları ilk dəfə nə vaxt görmüsünüz?

**Cavab:** Dəqiq tarix yadımda deyil, amma hava limanının tikintisi gedən vaxt idi. Ekskavator torpaq qatını qazırdı və torpaqla birlikdə müxtəlif saxsı parçaları da çıxırdı. Axşam işçilər getdikdən sonra maraq üçün onlardan birini götürdüm.

**Sual:** İlk baxışdan onların qeyri-adi olduğunu düşündünüzmü?

**Cavab:** İlk anda mənə adi saxsı qab qırığı kimi göründü. Üzəri torpaqla örtülü idi və digər daşlardan çox seçilmirdi. Lakin onu əlimə götürüb bir qədər diqqətlə nəzərdən keçirdikdən sonra üzərində zəif həndəsi naxışlar olduğunu sezdim.

**Sual:** Naxışları necə aşkar etdiniz?

**Cavab:** Qırığın üzərindəki torpağın bir hissəsini əlimlə təmizlədim və işığa tutaraq diqqətlə baxdım. Bu zaman onun üzərində müəyyən qaydada çəkilmiş xətlər və həndəsi fiqurlar gördüm. Naxışların təsadüfi olmadığını və qırığın adi məişət tullantısı deyil, tarixi əhəmiyyət daşıyan əşyanın bir hissəsi olduğunu anladım.

**Sual:** Sizcə, tikinti sahəsində çalışan şəxslər də bu naxışları görə və ya əşyaların tarixi əhəmiyyətini müəyyən edə bilərdilərmi?

**Cavab:** Zənnimcə, ilk baxışdan naxışların tarixi əhəmiyyətə malik olmasını müəyyənləşdirmək mümkün olmazdı, amma qırıqlara diqqətlə baxılsaydı, naxışları görmək mümkün idi. Lakin sahədəki işçilər qırıqları yoxlamır və ya diqqətlə öyrənmirdilər. Texnika işləməyə və torpağı daşımağa davam edirdi.

**Sual:** Qırıqların sayı çox idi?

**Cavab:** Mən torpağın arasında 3-4 qırıq gördüm. Onların hamısını yoxlamadım, amma götürdüyüm qırığın üzərində aydın naxışlar var idi. Həmin ərazidə başqa tarixi əşyaların olub-olmadığını bilmirəm.

**Sual:** Bu barədə hər hansı dövlət orqanına məlumat verdiniz?

**Cavab:** Xeyr. Mən bunu əvvəlcə qonşularıma göstərdim. Məsələ yerli sakinlər arasında müzakirə olunmağa başladı. Sonradan bunun dövlət orqanları tərəfindən araşdırılmalı olduğunu düşünsəm də kimə və necə müraciət ediləcəyini bilmədiyim üçün hər hansı quruma rəsmi müraciət etmədim.

**Sual:** Hazırda həmin qırıq sizdədir?

**Cavab:** Bəli, onu hələ də saxlayıram. Üzərindəki naxışlara əsasən onun tarixi əhəmiyyət daşıdığına inanıram, lakin konkret dövrü və maddi dəyəri yalnız mütəxəssislər müəyyən edə bilər.

### *REDAKSİYA QEYDİ:*

*Qəzetimizə təqdim edilən qırığın üzərində həndəsi naxışların olduğu müşahidə edilmişdir. Bununla belə, qırığın yaşı, mənşəyi və tarixi əhəmiyyəti, mədəni irsə aid edilməsi (atribusiyası) barədə rəsmi məlumat təqdim edilməmişdir.*



SƏHİFƏ 1

Hüquqşünas Kristin Beykers
Ünvan: Kaspiya Respublikası, Astera şəhəri, Şəfəq prospekti, 19
Tel: +000 56 430 92 17
E-poçt: kristinbeykers@yahoo.com

*07.02.2026 tarixində cases@kac.az vasitəsilə*

Xasməmmədov Arbitraj Mərkəzi
Katiblik

Hörmətli Katiblik,

Bu yazılı cavabı "Terravia" MMC adından "Porto Novo" konsorsiumu tərəfindən 09.01.26 tarixində təqdim edilmiş Arbitraj Bildirişinə cavab olaraq BAM Qaydalarının 7-ci maddəsinə uyğun təqdim edirəm. Bu arbitraj icraatında "Terravia" MMC-ni təmsil etməyə səlahiyyətli olduğumu təsdiq edən etibarnamənin surəti də daxil olmaqla tələb olunan sənədlər əlavə olunur.

Arbitraj bildirişinə cavabın surəti elektron poçt və kuryer vasitəsilə İddiaçı tərəfin nümayəndəsinə göndərilmişdir.

Hörmətlə,

Kristin Beykers
"Terravia" MMC-nin hüquqşünası və nümayəndəsi



Qoşma:
*1. Arbitraj bildirişinə cavab, qarşılıqlı iddia və qoşmaları;*
*2. Etibarnamə (təqdim edilmir);*
*3. Hüquqşünas Kristin Beykersin bioqrafiyası (təqdim edilmir).*

“Terravia” MMC tərəfindən
(Kaspiya Respublikası, Astera şəhəri,
Şəfəq prospekti, 19)

“Porto Novo” konsorsiumuna qarşı
(İoniya Respublikası,
Lirena şəhəri, Safir küçəsi, 16)

ARBİTRAJ BİLDİRİŞİNƏ CAVAB

Cavabdeh İddiaçı tərəfindən təqdim edilmiş faktları ümumiləşdirir və həmin faktları təsdiq edir. Bununla belə, Cavabdeh İddiaçının bu faktlardan çıxardığı nəticələr və hüquqi qiymətləndirmə ilə bağlı öz narazılığını bildirir.

Bu sənəd BAM Qaydalarının 32.1-ci maddəsinə əsasən, iddiaya qarşı etiraz kimi qəbul edilməlidir. Cavabdeh arbitraj məhkəməsinin müəyyən edəcəyi prosessual təqvimə uyğun olaraq əlavə etiraz, sübut, ekspert rəyi və vəsatətlər təqdim etmək hüququnu saxlayır.

Bununla yanaşı, Cavabdeh İddiaçının bütün tələblərini rədd edir və tikinti sahəsində aşkar edilmiş mədəni irs nümunələrinin bildirilmədən məhv edilməsi ilə bağlı qarşılıqlı iddia irəli sürür.

**Faktlar**

1. Cavabdeh 2004-cü ildə Kaspiya Respublikasının qanunvericiliyinə uyğun olaraq təsis edilmiş, tam dövlət mülkiyyətində olan məhdud məsuliyyətli cəmiyyətdir. Şirkət ölkədə strateji əhəmiyyətli infrastruktur layihələrinin, o cümlədən avtomobil, dəmir yollarının, hava limanlarının və digər nəqliyyat infrastrukturunun tikintisi və idarə edilməsi fəaliyyəti ilə məşğuldur.

2. Cavabdeh və İddiaçı arasında Novaliya şəhərində beynəlxalq hava limanının tikintisi məqsədilə keçirilmiş açıq tenderin nəticələrinə əsasən 15 fevral 2015-ci il tarixində Tikinti müqaviləsi bağlanmışdır. Müqaviləyə sonradan 15 mart 2016-cı il tarixində 1 saylı və 30 dekabr 2017-ci il tarixində 2 saylı dəyişiklik edilmişdir.

3. Müqavilənin bağlandığı tarixdə ƏDV üzrə tətbiq ediləcək rejimlə bağlı vergi orqanının yazılı qərarı mövcud olmamış və İddiaçı da Müqavilə imzalanarkən belə bir yazılı qərarın olmadığını bilmişdir.

4. Müqavilənin icrası zamanı İddiaçı dəmir armaturun təchizat zəncirinə təsir edən beynəlxalq sanksiyaların tətbiqi və onların təchizat zəncirinə təsiri barədə məlumatlı olmuşdur.
5. İddiaçı yalnız 2 saylı dəyişiklikdən sonra, yəni 15 dekabr 2018-ci il tarixində sanksiyalar, ƏDV-nin yaratdığı əlavə xərclərlə bağlı tələb irəli sürmüş və bu tələbini birbaşa Cavabdehə təqdim etmişdir.
6. Cavabdeh isə 2 saylı dəyişikliklə tərəflər arasında layihənin qiymətinin və iş həcminin yenidən müəyyən edildiyini və dəyişiklik çərçivəsində tərəflərin gələcəkdə əlavə tələb irəli sürməyəcəklərinə dair razılaşmanın əldə edildiyini bildirərək etiraz etmişdir.

**İddia tələblərinə etirazlar**

7. 2 saylı dəyişikliyin 3-cü bəndi aydın şəkildə yazılmışdır: tərəflər həmin tarixədək baş vermiş gecikmə, zərərin əvəzinin ödənilməsi, arbitraj və digər məsələlər ilə bağlı bir-birlərinə qarşı tələblərin olmayacağını bəyan etmişlər.
8. Sanksiyalar 2016-cı ildən qüvvəyə minmiş, ƏDV məsələsi isə 2015-ci ildən məlum olduğuna görə İddiaçı 2 saylı dəyişiklik imzalanarkən hər iki məsələ barədə məlumatlı idi.
9. İddiaçı və Cavabdeh 2 saylı dəyişikliyi imzalamaqla yekun müqavilə qiyməti və iş həcmi, habelə 60000000 (altmış milyon) avroluq işlər tamamlandıqdan sonra Müqavilə üzrə bütün öhdəliklərin tam icra edilmiş və Müqavilənin bitmiş sayılacağı barədə razılığa gəlmişlər. İddiaçının sonradan əlavə 28000000 (iyirmi səkkiz milyon) avro tələb etməsi bu razılaşmaya və müqavilələrin tərəflər üçün məcburi olması barədə Mülki Məcəllənin 399.1-ci maddəsinə ziddir.
10. Arbitraj sazişinin müstəqilliyi arbitraj məhkəməsinə tələblərdən imtina barədə müqavilə müddəasını təfsir etmək səlahiyyəti verir, lakin həmin səlahiyyət imtinanın maddi-hüquqi nəticələrinə təsir etmir.
11. Müqavilənin 20.1-ci maddəsinə əsasən, Podratçı tələbə əsas verən hadisə və ya şərait barədə məlumat əldə etdiyi və ya əldə etməli olduğu tarixdən 28 gün ərzində mühəndisə bildiriş verməli idi. İddiaçı sanksiyalar barədə 1 yanvar 2016-cı il tarixindən məlumat almış, lakin mühəndisə vaxtında heç bir bildiriş təqdim etməmişdir. Bu, müqaviləyə əsasən, tələb hüququnun itirilməsinə səbəb olur.
12. 15 dekabr 2018-ci il tarixli məktub həm gecikmiş, həm də yanlış şəxsə, yəni mühəndis əvəzinə birbaşa Cavabdehə göndərilmişdir.

13. Müqavilə qiyməti vahid məbləğ prinsipi əsasında müəyyən edilmişdir. Təchizat mənbəyinin seçilməsi, İoniya Respublikasının qanunvericiliyinə əməl edilməsi və materialların bazar qiyməti Podratçının kommersiya risklərinə aiddir. Sanksiyalar Kaspiya Respublikasının deyil, İddiaçının təsis olunduğu İoniya Respublikasının qərarlarıdır və Cavabdeh tərəfindən nə qəbul edilmiş, nə də idarə edilmişdir.

14. İddiaçı 50 faizlik qiymət artımının zəruriliyini, daha münasib alternativlərin olmadığını, satınalmaların layihəyə aid olduğunu və 10000000 (on milyon) avroluq əlavə xərclərin səbəb-nəticə əlaqəsini tam sübut etməmişdir. BAM Qaydalarının 35.1-ci maddəsinə əsasən, bu faktlara dair sübutetmə vəzifəsi İddiaçının üzərindədir.

15. Mülki Məcəllənin 422-ci maddəsi zərərin əvəzinin avtomatik ödənilməsi hüququnu yaratmır və xüsusən riskin müqavilə ilə Podratçıya aid edildiyi, tərəflərin sonradan qiyməti yenidən razılaşdırdığı halda tətbiq edilə bilməz.

16. Tenderöncəsi danışıqlarda Vergilər Nazirliyi ilə "prinsipial razılıq" barədə məlumat verilməsi yekun vergi qərarının mövcudluğu barədə təminat mənasına gəlmirdi. İddiaçı yazılı qərarın olmadığını bilə-bilə Müqaviləni imzalamışdır.

17. Vergilər Nazirliyinin güzəşt vermək səlahiyyəti Müqavilədən bir gün sonra qanunla ləğv edilmişdir. "Terravia" MMC dövlətə məxsus şirkət olsa da, vergi qanunvericiliyi qəbul etmək və səlahiyyətli dövlət orqanının inzibati qərarına təsir göstərmək səlahiyyətinə malik deyil. Qanunla mümkün olmayan vergi güzəştinin verilməməsi Cavabdehin təqsirli pozuntusu kimi qiymətləndirilə bilməz.

18. Cavabdeh həmçinin bildirir ki, ikitərəfli investisiya sazişinin tərəfi dövlətlərdir və "Terravia" MMC həmin saziş üzrə məsuliyyət daşıyan tərəf deyildir. Buna görə də Cavabdeh İddiaçının investisiya sazişinə əsaslanan iddiaları üzrə hər hansı məsuliyyət qəbul etmir və həmin iddiaların mahiyyəti barədə bu arbitraj icraatı çərçivəsində mövqe bildirmir.

19. Hər iki tərəfin imzaladığı 1 saylı dəyişiklikdə əlavə işlərə 18% ƏDV hesablanmışdır. Bu hal sonrakı kommersiya razılaşmasında mövcud vergi rejiminin qəbul edildiyini göstərir. 2 saylı dəyişiklik isə hər hansı mümkün qalıq vergi tələbinə son vermişdir.

20. İddiaçı vergi orqanının qərarı, vergi tutulan dövriyyə, faktiki ödəniş və geri tələb etdiyi məbləğin hesablanması qaydası barədə heç bir məlumat təqdim etməmişdir. Sadəcə 100000000 (yüz milyon) avroya 18% tətbiq etməklə 18000000 (on səkkiz milyon) avro tələb edilməsi faktiki vergi ödənişinin sübutu deyil.

21. Əsas pul tələbləri təmin edilmədiyi üçün faiz tələbi də rədd edilməlidir. Hər hansı məbləğ müəyyən edilərsə belə, faiz yalnız həmin məbləğin ödənilməli olduğu sübut edilmiş tarixdən tətbiq olunan hüquqa əsasən hesablana bilər.
22. Cavabdeh qeyd edir ki, İddiaçı müddəti keçmiş və müqavilə ilə istisna edilmiş tələblər irəli sürmüş, bu səbəbdən bütün arbitraj xərclərini İddiaçı ödəməlidir.

**Qarşılıqlı iddia**

**Faktlar**

23. 15 aprel 2016-cı il tarixində hava limanının terminal binasının yerləşəcəyi sahədə yerqazma işləri zamanı çoxlu sayda qeyri-adi saxsı qab qırıqları aşkar edilmişdir.
24. İddiaçının layihə rəhbəri Frauro Delotti qırıqlara baxış keçirdikdən dərhal sonra işlərin ağır texnika ilə davam etdirilməsinə dair göstəriş **(Qoşma C-001)** vermişdir.
25. İddiaçı aşkar edilmiş materiallar barədə nə Cavabdehə, nə mühəndisə, nə də Kaspiya Respublikasının və ya Novaliya şəhərinin səlahiyyətli orqanlarına məlumat vermişdir **(Qoşma C-002)**. Cavabdeh internet mənbələrindən məlumat əldə etdikdən sonra Kaspiya Respublikasının Mədəni İrs Agentliyinə müraciət etmişdir. Agentlik tapıntıların mədəni irs nümunəsi olması ehtimalını qeyd etmiş, onların dəqiq əhəmiyyətinin müəyyən edilməsi üçün əlavə araşdırmaya ehtiyac olduğunu bildirmişdir **(Qoşma C-003)**.
26. İddiaçının bu hərəkətləri, yəni məlumatı qəsdən gizləmə və aşkar edilmiş qırıqlar barədə məlumat verməmə Cavabdehin vaxtında araşdırma və qoruma tədbirləri görməsinə mane olmuş, onları qəsdən məhv etmə isə ciddi məsuliyyətə səbəb olan hallardandır.
27. Tikinti müqaviləsinin 6-cı bəndinə əsasən, tikinti sahəsində qiymətli və ya qədim əşya, tikili və digər geoloji və ya arxeoloji maraq doğuran tapıntılar aşkar edildikdə işlər dərhal dayandırılmalı, mühafizə tədbirləri görülməli və dərhal mühəndisə bildiriş göndərilməli idi. Bu öhdəlik yalnız rəsmi ekspert rəyi mövcud olduqda deyil, potensial əhəmiyyətli tapıntı aşkar edildikdə də qüvvəyə minir.
28. 2 saylı dəyişiklik qarşılıqlı iddianı istisna etmir, çünki hadisə və onun gizlədilməsi faktı 2 saylı dəyişiklik imzalanarkən Cavabdehə məlum olmamış, yalnız 2017-ci ilin sonunda məlum olmuşdur. İddiaçı həmin məlumatı qəsdən gizlətmişdir. Belə olan halda, İddiaçı bu gizlətmə nəticəsində yaranmış və Cavabdehə məlum olmayan tələbin 2 saylı dəyişiklikdəki ümumi imtina müddəası ilə əhatə olunduğunu iddia edə bilməz.

29. İddiaçı istənilən halda mədəni irsin qəsdən məhv edilməsinə görə əvvəlcədən məsuliyyətdən azad edilə bilməz, çünki müqavilə öhdəliyindən asılı olmayaraq, bu cür davranış həm sahəvi qanunvericiliyə, həm də tətbiq olunan hüququn təməl prinsiplərinə – vicdanlılıq, ağlabatan və məsuliyyətli davranış prinsiplərinə ziddir.

30. Beləliklə, Cavabdehin zərəri mədəni irsin məhv edilməsi, ərazinin arxeoloji qiymətləndirilməsi və bərpası xərcləri, layihənin nüfuzunun itirilməsi ilə bağlı zərəri, habelə araşdırma və ekspert xərclərini əhatə edir. Dəqiq məbləğin müəyyən edilməsi tapıntının məhv edilməsi səbəbindən çətinləşsə də, müstəqil arxeoloji və əmtəəşünaslıq ekspertizaları əsasında dəqiqləşdiriləcək.

**Qarşılıqlı iddia ilə bağlı tələblər**

31. Cavabdeh arbitraj məhkəməsindən aşağıdakılara dair qərar qəbul edilməsini xahiş edir:

    a. İddiaçının 15 aprel 2016-cı il tarixində aşkar edilmiş tapıntılar barədə məlumat vermədən işləri davam etdirməklə Müqavilənin 6-cı maddəsi üzrə öhdəliklərini pozduğu müəyyən edilsin.

    b. İddiaçının Cavabdehə vurduğu zərər (mədəni irsin məhv edilməsi, ərazinin arxeoloji qiymətləndirilməsi və bərpası xərcləri, layihənin nüfuzunun itirilməsi ilə bağlı zərəri, habelə araşdırma və ekspert xərcləri) tam ödənilsin.

    c. Zərər məbləğinə tətbiq olunan hüquqa uyğun onun yarandığı və ya ən gec İddiaçıya tələb bildirildiyi tarixdən tam ödəniş tarixinədək faiz hesablansın.

    d. Qarşılıqlı iddia ilə bağlı ekspert, vəkil və arbitraj xərcləri İddiaçı tərəfindən ödənilsin.

    e. Arbitraj məhkəməsinin məqsədəuyğun hesab etdiyi digər ağlabatan xərclər İddiaçı tərəfindən ödənilsin.

32. Qarşılıqlı iddianın pul ifadəsində yekun məbləği hazırda müəyyən etmək mümkün deyil. Cavabdeh arbitraj prosesinin ilkin mərhələsində əraziyə baxış keçirilməsini və arxeologiya sahəsində müstəqil ekspertin təyin edilməsini xahiş edir və hazırkı ərizə ilə bu barədə arbitraj məhkəməsinə vəsatət verir.

**Yekun tələblər**

33. Yuxarıdakıları nəzərə alaraq, Cavabdeh arbitraj məhkəməsindən aşağıdakılar barədə qərar qəbul edilməsini xahiş edir:

a. İddiaçının sanksiya və armatur qiymətində artımla bağlı 10000000 (on milyon) avro məbləğində əlavə xərc tələbi tam həcmdə rədd edilsin.
b. İddiaçının 18000000 (on səkkiz milyon) avro məbləğində ƏDV tələbi tam həcmdə rədd edilsin.
c. 2 saylı dəyişiklikdəki tələblərdən imtina müddəasının İddiaçının əlavə pul tələblərinə şamil olunduğu müəyyən edilsin.
d. İkitərəfli investisiya sazişi üzrə hər hansı tələbə münasibətdə Müqaviləyə əsasən yaradılmış hazırkı arbitraj məhkəməsinin səlahiyyətli olmadığı müəyyən edilsin.
e. Zərər məbləği sonrakı mərhələdə müəyyən edilməklə Cavabdehin mədəni irslə bağlı qarşılıqlı iddiası təmin edilsin.
f. Bütün arbitraj xərcləri və Cavabdehin ağlabatan hüquqi yardım xərcləri İddiaçıdan tutularaq Cavabdehə ödənilməsi barədə qərar çıxarılsın.

**Prosessual məsələlər**

34. Cavabdeh Müqavilənin xüsusi şərtlərinin 20-ci maddəsindəki arbitraj qeyd-şərtinin mövcudluğunu qəbul edir. Cavabdeh həmçinin aşağıdakıları qəbul edir: arbitrajın yeri - Bakı şəhəri, arbitrajın dili - Azərbaycan dili, tətbiq olunan maddi hüquq - Azərbaycan Respublikasının hüququ, arbitrlərin sayı - üç, sədrlik edən arbitri təyin edən orqan - XAM-ın Arbitraj Komissiyası.
35. "Porto Novo" konsorsiumunun hüquqi şəxs olmaması səbəbindən "Riverton Construction" MMC və "Airport Construction" MMC tərəfindən bu arbitrajı başlatmaq və konsorsium adından tələb irəli sürmək üçün lazımi korporativ qərarların və nümayəndəlik səlahiyyətlərinin təqdim edilməsini tələb edir.
36. Cavabdeh "Riverton Construction" MMC-nin ikitərəfli investisiya sazişindən irəli gələn hər hansı ayrıca tələbin bu arbitrajın predmetinə və arbitraj sazişinin çərçivəsinə daxil olmadığını bildirir. Müqavilədəki arbitraj sazişi "Terravia" MMC ilə "Porto Novo" konsorsiumu arasındadır və ikitərəfli investisiya sazişi üzrə dövlətin mümkün öhdəliklərinə şamil edilə bilməz.

*Qoşma C-001 – Şahid ifadəsi*

**Frauro Delottinin**

**şahid ifadəsi**

Mən, Frauro Delotti, İoniya Respublikasının vətəndaşı, aşağıdakıları öz şəxsi biliyimə əsaslanaraq bəyan edirəm:

1. 2008-ci ildə İoniya Texniki Universitetində inşaat mühəndisliyi üzrə ali təhsilimi başa vurmuşam. Təhsilim və peşəkar fəaliyyətim tikinti layihələrinin idarə edilməsi sahəsi üzrədir. 2015-2018-ci illər ərzində "Porto Novo" konsorsiumunda layihə rəhbəri vəzifəsində çalışmış və Novaliya beynəlxalq hava limanının tikintisinə rəhbərlik etmişəm.
2. 15 aprel 2016-cı il tarixində hava limanının terminal binasının inşa ediləcəyi ərazidə yerqazma işləri zamanı ekskavator operatorlarından biri qazıntı sahəsində çoxlu sayda saxsı qab qırıqlarına rast gəlindiyini mənə bildirdi.
3. Dərhal qazıntı sahəsinə getdim və həmin qırıqlara baxdım. İlk baxışdan onlar mənə tikinti sahələrində rast gəlinən adi saxsı və ya məişət tullantılarının qalıqları təsiri bağışladı. Qırıqlar torpaqla örtülü idi, onların üzərində hər hansı yazı, simvol və ya açıq şəkildə görünən fərqləndirici əlamət müşahidə edə bilmədim.
4. Mən arxeoloq və ya tarixçi deyiləm. İxtisasca mühəndis olaraq, layihə rəhbəri kimi vəzifəm tikinti işlərinin təhlükəsiz və müqaviləyə uyğun şəkildə həyata keçirilməsini təmin etmək idi. Həmin vaxt əlimdə olan məlumatlara əsasən, qırıqların tarixi və ya arxeoloji əhəmiyyət daşıdığı qənaətinə gəlmədim.
5. Qazıntı işlərinin davam etdirilməsi barədə göstəriş verdim. Bu qərarı qəbul edərkən qırıqların hər hansı mədəni irs nümunəsi olduğunu düşünmürdüm və hər hansı dövlət orqanına məlumat verməyi zəruri hesab etmədim. Bildiyimə görə, Novaliya şəhəri qədim şəhər deyil, orada heç bir maraqlı tarixi hadisə baş verməyib.
6. Məndə olan məlumatlara əsasən, həmin tarixdə tikinti sahəsində nə Kaspiya Respublikasının, nə də Novaliya şəhərinin hər hansı dövlət və ya bələdiyyə orqanının nümayəndəsi iştirak etmirdi. Heç bir dövlət qurumu tərəfindən tikinti işlərinin dayandırılması və ya qazıntı aparılması barədə göstəriş verilməmişdi.
7. Həmin hadisə barədə Cavabdehə ayrıca yazılı bildiriş göndərmədim. Bunun bir neçə səbəbi var idi. Əvvəla, qırıqların tarixi əhəmiyyət daşıdığını düşünmürdüm. Digər tərəfdən, işlər tikinti üçün nəzərdə tutulan cədvələ və

müqaviləyə uyğun aparılmalı idi və işlərin dayandırılması təmsil etdiyim konsorsium üzərində ciddi məsuliyyət yaradardı.

8. Sonradan müxtəlif internet mənbələrində həmin qırıqların tarixi əhəmiyyət daşıya biləcəyi barədə yayılan məlumatlara rast gəldim. Lakin 15 aprel 2016-cı il tarixində belə bir məlumat və ya ekspert rəyi mənə məlum deyildi.

Bu ifadədə göstərilən məlumatların mənim şəxsi biliyimə əsasən doğru olduğunu təsdiq edirəm.

İmza: Frauro Delotti



*Qoşma C- 002 – Şahid ifadəsi*

**Kraud Marvenin**

**şahid ifadəsi**

Mən, Kraud Marven, aşağıdakıları şəxsi biliyimə və mənim üçün əlçatan olan layihə qeydlərinə əsasən bəyan edirəm:

1. Mən 2015-2019-cu illərdə "Kaspiya Industrial Consultants" QSC-də baş mühəndis və Novaliya beynəlxalq hava limanı layihəsi üzrə mühəndis kimi fəaliyyət göstərmişəm. Nə Sifarişçinin, nə də Podratçının işçisi deyiləm və olmamışam.
2. Podratçının 15 dekabr 2018-ci il tarixli məktubu birbaşa "Terravia" MMC-yə ünvanlanmışdı. Mövcud elektron arxivdə, daxilolma reyestrində və layihə fayllarında həmin məktubun mühəndisə, yəni mənə ayrıca göndərildiyini və ya çatdırıldığını göstərən heç bir qeyd yoxdur.
3. Həmçinin təxminlərimizə əsasən, 2017-ci ilin sonundan başlayaraq şirkətimizin informasiya sistemləri kiberhücuma məruz qalmışdır. Vaxt keçdikcə elektron poçt və sənəd dövriyyəsi sistemləri bloklanmış və yalnız texniki tədbirlərdən, habelə hücumu törədən şəxslərlə aparılmış danışıqlardan sonra 29 yanvar 2020-ci ildə sistemlərə giriş tam bərpa edilmişdir.
4. 2017-2020-ci illər ərzində şirkətimizin informasiya sistemlərində baş vermiş kiberhücumun nəticələri səbəbindən bəzi daxil olan sorğuların və yazışmaların cavabsız qalmış olması mümkündür. Bunun əsas səbəbi kiberhücum nəticəsində elektron yazışmaların bir hissəsinin silinməsi, elektron poçt hesablarına çıxışın müəyyən müddət ərzində məhdudlaşması və elektron kommunikasiya sistemlərinin normal fəaliyyətinin pozulması idi. Buna görə də həmin dövrdə daxil olan bütün yazışmaların qəbul edildiyini və ya onlara vaxtında cavab verildiyini qəti şəkildə təsdiq edə bilmirəm.
5. 15 aprel 2016-cı ildə tikinti sahəsində saxsı qırıqlarının aşkar edilməsi barədə mənə şifahi və ya yazılı məlumat verilməmişdir. Mən bu hadisə barədə ilk dəfə 2019-cu ilin fevralında Sifarişçinin hüquq şöbəsindən məlumat aldım.
6. Vaxtında məlumat verilsə idi, Tikinti müqaviləsinin 6-cı bəndinə uyğun olaraq, tapıntıların qorunmasını, işlərin müvafiq hissədə müvəqqəti dayandırılmasını və Mədəni İrs Agentliyinin əraziyə dəvət edilməsini tələb edərdim. Mühəndis kimi belə hallar yarandıqda əsas vəzifəm işləri səbəbsiz yerə gecikdirmək deyil, mümkün tarixi tapıntının bərpaolunmaz şəkildə məhv edilməsinin qarşısını almaq olardı.

7. 2 saylı dəyişiklik üzrə danışıqlarda texniki məsləhətçi kimi iştirak etmişəm. Tərəflərin işlərin azaldılmış həcmini, 60 milyon avroluq yekun müqavilə qiymətini və 31 dekabr 2018-ci il tarixini işlərin tamamlanması üçün son müddət kimi müzakirə etdiklərini təsdiq edə bilərəm. Lakin tələblərdən imtina müddəasının əhatə dairəsi barədə tərəflərin niyyətləri haqqında ifadə verə bilmərəm.

Bu ifadədə göstərilən məlumatların şəxsi biliyimə və hazırda mövcud olan layihə qeydlərinə əsasən, doğru olduğunu təsdiq edirəm.

İmza: Kraud Marven



***Qoşma C-003 – Agentliyin məktubu***

**Kaspiya Respublikası**

**Mədəni İrs Agentliyi**

Kaspiya Respublikası, Novara şəhəri, Meridian küçəsi; Tel: +000 68 159 3742, Faks: +000 (45) 218-6045

**1 mart 2018-ci il**
**"Terravia" MMC-nin direktoru**
**Viktor Kelnerə**

Hörmətli cənab direktor,

Agentliyə təqdim edilmiş fotoşəkillər və "Novaliya" qəzetinin 20 noyabr 2017-ci il tarixli materialı tərəfimizdən nəzərdən keçirilmişdir. Fotoşəkillərin keyfiyyəti, habelə fotoşəkillərdə qazıntı ərazisinin tam əks edilməməsi səbəbindən tapıntıların yaşını və elmi dəyərini dəqiq müəyyən etmək çətindir.

Bununla belə, nümunələrdə müşahidə olunan aşınma izləri və keçmiş dövrlərə xas naxışlar onların mədəni irs olması ehtimalını artırır. Dəqiq qiymətləndirmə üçün tapıntı yerinin araşdırılması və oradan götürülən nümunələrin laborator analizi və tikinti ərazisində qalan materialların dəqiq inventarlaşdırılması tələb olunur. Bununla belə, qeyd edirik ki, ağır texnikadan istifadə ilə tapıntılar aşkar edildikdən sonra aparılmış işlər sahənin ilkin vəziyyətinə mənfi təsir göstərmiş ola bilər.

Bu məktub tapılmış materiallar barədə yekun ekspert rəyi deyil və ya hər hansı şəxsin məsuliyyətini müəyyən etmir.

Hörmətlə,
Julian Kervan
Sədr müavini

Julian Kervan

## PROSESSUAL QƏRAR № 1

*15 mart 2026-cı il*

**"Porto Novo" konsorsiumu "Terravia" MMC-yə qarşı**
**XAM İş № XAM-ARB-2026/17**

### 1. Arbitraj məhkəməsinin tərkibi və səlahiyyəti

1.1. Üç arbitrdən ibarət arbitraj məhkəməsi tərəflərin təyin etdiyi iki arbitrdən və həmin arbitrlərin təyin etdiyi sədrdən ibarət olmaqla, müstəqillik və qərəzsizlik barədə bəyannamə imzalamışdır.

1.2. Arbitraj məhkəməsi arbitraj sazişinin mövcudluğunu ilkin olaraq təsdiq edir.

### 2. Tətbiq olunan arbitraj qaydaları

2.1. İcraata BAM Arbitraj Qaydaları (18 oktyabr 2025-ci il tarixli redaksiya) tətbiq edilir. Arbitrajın yeri Bakı, dili Azərbaycan dilidir.

### 3. Sübutlar və faktlar

3.1. Kazusda olan sənədlər həqiqi və tərəflərə çatdırılmış hesab edilir. İmza və surətlərin həqiqiliyinə etiraz yoxdur. Tərəflər sənədlərin hüquqi mənası, sübut çəkisi və nəticələri barədə mübahisə edə bilərlər.

### 4. Tərəflərin qarşısında duran məsələlər

a. Arbitraj məhkəməsinin iddiada və qarşılıqlı iddiada qeyd edilən məsələlərə baxmaq üçün yurisdiksiyası varmı? Həmin məsələlər qəbulediləndirmi ("admissible")?

b. İddiaçının sanksiyaların tətbiqi nəticəsində yaranmış əlavə xərclərlə bağlı tələbi təmin edilməlidirmi?

c. Cavabdeh 0% ƏDV dərəcəsinin tətbiqinin təmin edilməsi üzrə müqavilə öhdəliyini pozmuşdurmu və İddiaçının ƏDV üzrə kompensasiya tələbi əsaslıdırmı?

d. İddiaçı mədəni irsin qorunması ilə bağlı öhdəliyini pozmuşdurmu və Cavabdehin qarşılıqlı tələbi əsaslıdırmı?